***Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin noyabrında Sumqayıtın 70 illik yubileyi ilə əlaqədar şəhərimizdə keçirilən tədbirdə çıxış edərək bir çox vacib məqamlara aydınlıq gətirdi. Dövlətimizin başçısı 1988-ci ildə şəhərdə törədilmiş hadisələrə də toxundu. Ölkə rəhbəri bütün bunların erməni millətçilərinin əməlləri olduğunu bir daha diqqətə çatdırdı. Möhtərəm Prezident hadisələrin əslində Qarabağın dağlıq hissəsinin Azərbaycandan qoparılmasına və keçmiş SSRİ-nin dağılmasına təkan verəcək vasitələrdən biri kimi düşünüldüyünü qeyd etdi.***



# Sumqayıt hadisələri ermənilərin planlı təxribatı idi

Əslən Zəngəzurdan olduğum üçün o zaman Sumqayıtda baş verənləri yaxşı anlayırdım. Ermənilərin necə ikiüzlü, xain, nankor olduqlarından xəbərdar idim.

Həmin ərəfədə Ermənistandan zorla qovulmuş azərbaycanlıların 18 min 331 nəfəri Sumqayıta pənah gətirmişdi. Orada soydaşlarımıza qarşı şovinist hərəkətlər törədilməsi ilə bərabər, Sumqayıtda da təhrikçi qüvvələr peyda olmuşdu. Onlar Qərbi Azərbaycanın müxtəlif rayonlarından gəldiklərini, orada azərbaycanlılara amansız divan tutulduğunu, qızların zorlandığını, qocaların, ağbirçəklərin döyülərək öldürüldüyünü şəhərin mərkəzində, kolxoz bazarının və univermağın ətrafında toplaşan sakinlərə bildirir və aranı qızışdırırdılar. Nəticədə gənclərimizdə intiqam hissləri getdikcə alovlanırdı.

İxtişaşların Sumqayıtda törədilməsi heç də təsadüfi deyildi. Bu məkan çoxmillətli bir şəhər olduğu üçün təxribat və qətllərin təşkilatçılarının niyyətlərinə uyğun gəlirdi. Digər tərəfdən, o dövrdə artıq respublikada, o cümlədən Sumqayıtda əhali arasında rəhbərlikdən müəyyən narazılıqlar vardı. SSRİ DTK-dan "xeyir-dua" alan bir qrup erməni Azərbaycan xalqının bu narazılığından yararlanaraq, məhz Sumqayıtda təxribata əl atdı.

Şəhərin 3-cü mikrorayonunda mənzil-istismar sahəsinin pasport qeydiyyatçısı işləyən Laura Lalayan "Krunk" təşkilatına üzv olmayan və maliyyə yardımı göstərməyən ermənilərin adlarının qarşısına qara xətt qoyaraq, siyahını təxribatı icra etmək tapşırığı almış Eduard Qriqoryana vermişdi. Heç kəs fərqinə varmırdı ki, niyə dağıdıcı dəstəni arxasınca aparan Qriqoryan hansısa binanın birinci mərtəbəsindəki erməniyə toxunmur, lakin yuxarı mərtəbədə yaşayan erməni sakinlərini hədəf seçir, onlara divan tutur, öldürür və ya öldürtdürürdü. Çünki aşağı mərtəbədə yaşayan ermənilər "Krunk" cəmiyyətinin üzvü olmaqla Ermənistanın mənafeyini müdafiə edirdilər. Ermənilər dünya ictimaiyyətinə çatdırırdılar ki, baxın, barbar müsəlmanlar "yazıq, cəfakeş, məzlum", erməniləri qırırlar, bunlarla bir yerdə yaşamaq mümkün deyil. O biri tərəfdən isə Ermənistana mesaj göndərirdilər ki, erməni mənafeyini güdməyənin aqibəti məhz belə olar.

Sumqayıtdakı mitinqlərdə təxribatçı çıxışlar edənlərin kimliyi də sonradan məlum oldu. Hadisələr davam edərkən baş verənlərin görüntüləri dünyanın müxtəlif ölkələrində yayılmışdı. Evlərin damına kameralar quraşdırılaraq, hadisələr lentə alınmışdı.

İxtişaşlar zamanı "kapitan" rolunu oynayan Qriqoryanı mən də tanıyırdım. "Paşa" ləqəbi ilə çağrılırdı. Dəfələrlə həbsdə yatmışdı. Buna görə də xüsusi xidmət orqanları onu ələ almışdı. Proseslər isə gizli gedirdi. Heç kəs Qriqoryanın niyyətindən xəbərdar deyildi. 3-cü mikrorayonda, avtovağzal ərazisində hadisələr başlayanda Qriqoryan ön cərgədə dayanmışdı. Ünvanlara həmlələr zamanı da "flaqman" o idi.

Deyə bilərsiniz ki, Qriqoryan erməni soyadıdır. Azğınlaşan kütlə isə onun, yəni bir erməninin təxribatçı fikirlərinə inanaraq hərəkət edirdi. Məsələ onda idi ki, həmin vaxt bizdə beynəlmiləlçilik əhval-ruhiyyəsi hökm sürürdü. Yəni Sumqayıt 80-dən çox millətin nümayəndələrinin yaşadığı bir sənaye şəhəri idi. Bəlkə də onun arxasınca gedən gənclərin çoxu Qriqoryanın erməni olduğundan xəbərsiz idi. Azərbaycan dilini elə gözəl bilirdi ki, adam mat qalırdı. Hətta bir dəfə söhbət edəndə o, "filankəs mısmırığını salladı" şəklində bir cümlə işlətmişdi. Heç azərbaycanlıların müəyyən hissəsi "mısmırıq" sözünün mənasını bilmirdi. Ləqəbi də "Paşa" olduğuna görə şübhə yaratmırdı. Onun arxasınca gedən gənclərimizin əksəriyyəti isə zavodlarda fəhləlik edən siyasətdən uzaq adamlar idi.

Ermənilərin planlı şəkildə həyata keçirdikləri məsələlərdən biri də Sumqayıtda yaşayan, milliyyətcə erməni olan 84 nəfər əmanətçi şəhərimizdə fəaliyyət göstərən 14 əmanət kassasından 143 min 64 rubl məbləğində əmanətləri götürmüşdü.

İsrailə köçmüş bir bakılı Tel-Əvivdə çıxan "Kruq" qəzetində dərc etdirdiyi "Bakı gündəliyi"ndə yazırdı: "Keçmiş həmvətənim olan qadın etiraf edirdi ki, Sumqayıt azərbaycanlıların erməniləri qəhrəmancasına qoruduqları şəhərdir. Qətllərə, əlbəttə, ermənilər rəvac vermişdilər. Tutulanların işinə isə qəsdən Rusiyanın məhkəmələrində baxılıb ki, çirkin niyyətlər ört-basdır edilsin". İsveçdə yaşayan erməni siyasi xadim və yazıçı Vaqe Avetyan özünün sensasion fikirləri ilə soydaşlarının iç üzünü açıb. Sumqayıt hadisələrinin ildönümü ərəfəsində o bildirib ki, həmin dövrdə yaşanan hadisələri azərbaycanlılar deyil, SSRİ rəhbərliyinin köməyi ilə ermənilərin özləri törədiblər. "Ermənilər Qarabağı qonşularından alıb dünyaya göstərmək istədilər ki, necə ağıllı, qədim keçmişə malik xalqdırlar. Eləcə də demək istədilər ki, azərbaycanlılar necə pis xalqdır", - deyə erməni yazıçı bəyan edib.

Kütləvi ixtişaşlar nəticəsində 60 mənzil qarət olundu, 14 avtomaşın yandırıldı, 8 avtomaşın zədələndi, 16 ticarət obyektinin şüşələri sındırıldı, DİN-in 17 ədəd avtomaşını əzildi. Həmin vaxt 198 nəfər bədən xəsarəti aldı, onlardan 87 nəfəri xəstəxanalara yerləşdirildi.

O vaxt ermənipərəst rəhbərlər bizə tapşırırdılar ki, milliyyətcə erməni olan işçiləri tapın, yemək aparın, xəstəxanalara baş çəkin. Mən bazarlıq edib xəstəxanaya getdim, orada 94 yaşlı erməni qadına salam verdim. O isə mənə tərəf acı-acı baxışlarla baxdı və sayıqlamağa başladı: – Lernayın Qarabax merna (Dağlıq Qarabağ bizimdir) dedi və üzünü yana çevirdi. O zaman Levon Ter-Petrosyan müsahibələrinin birində demişdi: "Sumqayıt hadisələrindən sonra Azərbaycan xalqı şok vəziyyətinə düşmüşdü, əgər ölkə rəhbərliyi bu məqamdan istifadə edib, Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşməsi haqqında qərar çıxarsaydı, Azərbaycan xalqı buna etiraz edə bilməyəcəkdi". Mənə elə gəlirdi ki, həmin vaxt Sumqayıtda baş verən hadisələrdən bizim ziyalılar, yazarlar, adi fəhlələr baş çıxara bilmir, bu cür təxribatın baş verməsinə inanmırdılar. O vaxtkı kütbaş rəhbərlərin Mərkəzin göstərişi ilə oturub-durmaları, hadisələri düzgün araşdırmamaları, bütün günahları azərbaycanlıların üzərinə yıxmaları Azərbaycan xalqına arxadan vurulan zərbə idi.

Sumqayıtda baş verən hadisələrə hüquqi qiymət verilmədi. İstintaq qanuna zidd formada aparıldı. Hadisələrin əsas təşkilatçısı bir tərəfdə qaldı, Moskvada Əhməd Əhmədova ölüm hökmü oxundu.

Əhmədi yaxşı tanıyırdım. Onun haqqında məqalə də yazmışam. Sonradan ata-anası ilə həmsöhbət olduq. Valideynləri bildirirdi ki, Əhməd müharibədən, dava-dalaşdan uzaq insan idi. O zaman Sumqayıt Dövlət Dram Teatrında çalışan Xalq artisti Afaq Bəşirqızı ilə bağlı da əsassız iddialar qaldırılmışdı. Mən özüm doqquz dəfə prokurorluğa çağırılmışdım. Dostlarım mənə əvvəlcədən demişdilər ki, kitablarımın hamısını gizlədim. Elə şeirlərim vardı ki, ələ keçsəydi, mənə də millətçi damğası vurula bilərdi. Çünki adım təhrikçi millətçilər siyahısına düşmüşdü. Əvvəlcə direktor işlədiyim məktəbə, sonra evimə gəlib yoxlama apardılar. Təsadüfən evimizdə yun darağı tapmışdılar. Məsələni qəlizləşdirərək həmin darağın silah məqsədilə istifadə oluna biləcəyindən şübhələnməyə başladılar. Həyat yoldaşım dərhal içəri keçib yun gətirərək daramağa başladı ki, həmin əşya silah deyil, bu məqsəd üçün istifadə olunur.

Haqq nazilsə də, üzülməz. Bu gün müzəffər Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, qəhrəman Ordumuzun hünəri sayəsində ermənilərin qonşu torpaqlarını ələ keçirmək niyyətləri tam iflasa uğrayıb.

***Əvəz MAHMUD LƏLƏDAĞ,***
***Sumqayıt Dövlət Universitetinin müəllimi, şair-dramaturq***